**UOT 821.512.162**

**Vasif QULİYEV**
Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**vasif5000@mail.ru**

# CƏLİL MƏMMƏDQULUZADƏNİN QARABAĞDA İCTİMAİ, MƏDƏNİ, TƏSƏRRÜFAT VƏ SİYASİ FƏALİYYƏTİ

**Açar sözlər**: Bəhmən Mirzə Qacar, Əhməd bəy Cavanşir, Mirzə Ələkbər Sabir, Əliş bəy Cavanşir, Salman Əlibəyov, Kərbəlayı Əli Babayev, Əbdülkərim bəy Mehmandarov, Qəmər xanım Əliyeva

**Keywords**: Bahman Mirza Qajar, Ahmad bay Javansher, Mirza Alakbar Sabir, Alish bay Javansher, Salman Alibayov, Karbalayi Ali Babayev, Abdulkarim bay Mehmandaraov, Qamar Khanum Aliyeva

**Ключевые слова**: Бахман Мирза Гаджар, Ахмед бек Джаваншир, Мирза Алекбер Сабир, Али бек Джаваншир, Салман Алибеев, Кербелаи Али Бабаев, Абдулкерим бек Мехмандаров, Гамар ханым Алиева

**Kitabxana işi.** Cəlil Məmmədquluzadənin ikinci dəfə Qarabağla tanışlığı 1907-ci ilin iyun ayında Həmidə xanım Cavanşirlə ailə həyatı qurandan sonra başlamışdı. Həmin vaxtdan böyük ədib ömrünün sonunadək müxtəlif fasilələrlə Kəhrizlidə yaşamış, öz işi, əməli, yaradıcılıq fəaliyyəti ilə bu kəndin həyatında silinməz izlər qoyaraq onun tarixinə neçə-neçə maraqlı səhifələr yazmışdır.

Mirzə Cəlil Kəhrizliyə gələn gündən sadə, mehriban, zəhmətkeş adamlarla qaynayıb-qarışmış, onların həyat və yaşayış tərzi ilə yaxından tanış olaraq dərd-sərlərini, ehtiyaclarını öyrənib-bilmiş, problemlərinin aradan qaldırılmasına bacardığı qədər köməklik göstərmişdi. Çox çəkmədən kənd camaatı ilə onun arasında səmimi bir ünsiyyət yaranmış və ədib kəhrizlilərin dərin hüsn-rəğbətini qazanmışdı. Mirzə Cəlil heç vaxt özünü onlardan ayırmamış, özünü kəndin doğma övladı hesab etmiş və bu yerlərə getdikcə ürəkdən bağlanmışdı. Ona görə də onun Kəhrizliyə hər gəlişi sadə kəndlilər üçün həmişə toy-bayrama çevrilirdi.

Cəlil Məmmədquluzadə Kəhrizlidə Həmidə xanım Cavanşirlə birlikdə bir çox mədəni tədbirlərin həyata keçirilməsinin təşəbbüskarı və ömür-gün yoldaşının arzularının həyata keçməsində ona böyük yardımçı olmuşdur. Həmidə xanım “Xatirələrim”də yazır: “Bizim evdə hələ ötən əsrin *(*XIX əsrin – *V.Q.)* qırxıncı illərindən bəri rəhmətlik atam Əhməd bəyin yaratdığı zəngin bir kitabxana vardı. Mərhum alim-aqronom qardaşımdan qalmış kənd təsərrüfatına aid xüsusi kitablar da burda toplanmışdı. Mirzə Cəlil bu kitabları maraqla nəzərdən keçirir və xoşuna gəlirdi. O, söz vermişdi ki, kitabxananı sahmana salacaq və yavaş-yavaş böyüdəcək” [2, s.110-111].

Əhməd bəy Cavanşirin yaratdığı bu kitabxana Qarabağda adla idi. Həmin dövrdə Azərbaycanda az-az ziyalıların şəxsi kitabxanası vardı. Əhməd bəyin kitabxanasında nələr yox idi, hansı kitablar çatmırdı?! Onun rus ordusundan tərxis olunub vətənə dönərkən hərbə, kənd təsərrüfatı elmlərinə və digər mövzulara dair alıb gətirdiyi ədəbiyyat, alman alimi F.Müllerin fransız dilində nəşr olunmuş siyasi iqtisada aid əsəri, elmi, fəlsəfi, tibbi mövzuda yazılmış kitablar, abunəçisi olduğu və

çıxış etdiyi “Vestnik Evropı”, “Niva” və başqa jurnalların, Qarabağ üzrə xüsusi müxbiri olduğu “Qafqaz”, “1747-ci ildən 1805-ci ilədək Qarabağ xanlığının siyasi vəziyyətinə dair” tarixi əsərinin dərc edildiyi “Novoe obozrenie” və müxtəlif qəzetlərin nüsxələri, “Əkinçi”nin tam komplekti, rus şairləri V.A.Jukovskidən, A.S.Puşkindən, M.Y.Lermontovdan etdiyi tərcümələr, dostları Mirzə Fətəli Axundovun və Həsən bəy Zərdabinin ona yazdığı məktublar və başqa əlyazmaları, özünə aid 1883-cü ilin istintaq materiallarının ikinci nüsxəsi, uzun illərdən bəri Qarabağın və Qafqazın tarixinə dair topladığı qiymətli sənədlər, nəşrə hazırladığı dörd hissədən ibarət Azərbaycan atalar sözlərinin tam külliyyatı, çap olunmayan əsərləri, digər yazı-pozu işləri, dəftər-kitabları, daha nələr, nələr... saxlanılırdı. Bütün bu materiallar, xüsusilə də kitablar səliqə ilə cildlənmiş halda idi [2, s. 54]. “Həm ərəb, həm də rus əlifbası ilə yazılmış bu kitabların içində Azərbaycan, rus, Qərbi Avropa klassiklərinin əsərləri də vardı. Orda Puşkin, Qoqol, Lermontov, Tolstoy və başqa şair və yazıçıların çoxlu kitabı olduğunu xatırlayıram. Həmidə xanım “Niva”, “Vokruq sveta” və sair jurnallara abunə yazılmışdı. O, qalın jurnalların ədəbi əlavəsi şəklində buraxılan kitabları da alırdı” [8].

...Cəlil Məmmədquluzadənin bir sıra yazılarından onun həm də gözəl və səliqəli bir kitabxanaşünas olduğu məlum olur. Xalqın savadlanmasında, millətin oyanmasında kitabı, kitabxana işini həmişə ön plana çəkən, ona böyük əhəmiyyət verən, diqqət yetirən böyük ədib bir çox məqalə, məktub və felyetonlarında, habelə “Molla Nəsrəddin” jurnalında çıxmış karikaturalarda bu barədə gözəl fikirlər söyləyir, zəhmətkeş balalarını elm öyrənmək üçün dini kitabların əvəzinə Zeynalabdin Marağayinin “İbrahim bəyin səyahətnaməsi”ni, Mirzə Mülküm xanın əsərlərini, Mirzə Fətəli Axundovun komediyalarını, Molla Pənah Vaqifin, Mirzə Ələkbər Sabirin şeirlərini oxumağı məsləhət görür, oxucuları kitabdan və jurnaldan səmərəli istifadə etməyə, ədəbiyyatı qayğı ilə qoruyub saxlamağa çağırırdı [1].

Hələ gənclik illərindən yazıçı xalqa xidmət edəcək yeni tipli kitabxananın yaradılmasına çalışır, bu mədəni tərəqqiyə əngəl olanlara qarşı daim və amansız mübarizə aparırdı. Ona görə də Kəhrizliyə gəldiyi ilk gündən o, Həmidə xanıma verdiyi sözə əməl elədi. Kitab o qədər çox idi ki, yer olmadığından onların bir hissəsini yeşiklərə doldurub tavana qədər qaldırmış, bir hissəsini isə şkaflara yığıb, divarlara söykəmişdilər. Əhməd bəyin çox da böyük olmayan evinin bir hissəsində, daha dəqiq desək, iş otağında yerləşən kitabxanasını qaydaya salıb, oxucuların ixtiyarına verməsi Mirzə Cəlilin Qarabağın bu ucqar kəndində mədəni-maarif sahəsində gördüyü ilk böyük faydalı işi idi.

Kitabxananın keçmiş oxucusu, Mirzə Cəlilin ailəsində böyüyüb təhsil almış, uzun illər ədibin qızı Münəvvər xanımla rəfiqəlik etmiş Qəmər xanım Əliyeva Cəlil Məmmədquluzadə haqqındakı xatirəsində söyləyir: “Kəhrizlidə hələ Əhməd bəy Cavanşirdən qalma çoxlu kitab və jurnal vardı. Biz bu kitabların çoxunu Şuşaya aparmışdıq. Asudə vaxtlarımızda mütaliə edirdik. Axır vaxtlar həmin kitabların bir çoxunu Müzəffər Bakıya gətirmişdi. İndi, deyəsən, bir qismi Əlyazmalar Fondunda (indiki AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu – *V.Q.*) Mirzə Cəlilin kitabları, kağızları ilə bir yerdədir” [4].

Sonralar Mirzə Cəlilin və Həmidə xanımın aldıqları kitab və jurnallar kitabxananın fondunu daha da zənginləşdirdi. Çox çəkmədən bura çoxlu ədəbiyyat, dövri mətbuat nümunələri, xüsusən də “Molla Nəsrəddin” jurnalının illik komplektləri toplandı, kitabxanaya onlarca təzə oxucu cəlb olundu. Həmidə xanım Cavanşir xatirələrində yazırdı: “Həmin günlərdə (1918-ci ilin dekabrında – *V.Q.*) Mirzə Cəlil mənə

dedi ki, bu pyesi ("Anamın kitabı"nı – *V.Q.*) yazmaqdan ötrü ona müxtəlif lüğətlər lazımdır. Soraqlaşdım, dedilər: Belə lüğətləri poçtalyon Rəsul bəy tapa bilər. Həmin poçtalyon vasitəsilə keçmiş İran şahzadəsi Bəhmən Mirzənin kitabxanasından çoxlu sayda müxtəlif lüğətlər və bir çox başqa kitablar aldım. Bu kitabları Bəhmən Mirzənin varisləri satırdılar. Mirzə Cəlil kitabları görəndə sevindiyindən başını itirdi və bütün fikri-xəyalı ilə onlara qapıldı. Kitablar üçün məxsusi bir dolab sifariş elədik və həmin dolabı da onun otağına yerləşdirdik. Sonradan Mirzə Cəlil həmin dolabı kitabları ilə bir yerdə Kəhrizliyə apartdırdı. Böyük bir arxivi xatırladan bu kitabxana 1920-ci ilə qədər qorunub saxlanmışdı. İrana gedəndən sonra Bakıdan gəlmiş polk Kəhrizlidə bizim evimizdə yerləşmiş və bu polkun zabitləri bütün kitabxanamızı ikifurqonlu araba ilə bizim kənddən bir az aralı, polkun qərargahı yerləşən erməni kəndi Hadruta daşımışdılar" [2, s.193-194].

Və beləliklə də Əhməd bəy Cavanşirin, Cəlil Məmmədquluzadənin və Həmidə xanım Cavanşirin illərdən bəri çalışıb düzəltdikləri böyük bir kitabxana məhv oldu, kitabları əldən-ələ gəzərək itib-batdı.

**Məktəbdarlıq.** Atasının neçə il əvvəl elədiyi bir vəsiyyəti – Kəhrizlidə qızlarla oğlanların bir yerdə oxuyacaqları məktəb açmaq istəyi Həmidə xanımın ürəyində çoxdan bir arzu olaraq qalmışdı. O, bu arzunu yerinə yetirməyə bir neçə dəfə səy göstərmiş, hətta bu məqsədlə məktəb üçün bina da tikdirmişdi. Lakin ortaya çıxan gözlənilməz mürəkkəb problemlər bu nəcib təşəbbüsün həyata keçirilməsinə hər dəfə də mane olmuşdu. İndi isə artıq ona kömək eləyə və istəyini gerçəkləşdirə biləcək "yoldaş"ı və "arxa"sı vardı. Həmidə xanım məqsədini Mirzə Cəlilə bildirərkən o, bu fikri ürəkdən alqışlamış, işin başa çatdırılması üçün əlindən gələni əsirgəməmişdi.

Nəhayət, 1909-cu ildə Həmidə xanım Mirzə Cəlilin yaxından köməyi ilə öz arzusunu reallaşdıra bildi. Məktəbin fəaliyyətə başlaması üçün hazırlıq işləri aparıldı, ilkin tədbirlər görüldü. Mirzə Cəlil bəri başdan dülgər, usta Qriqora iyirmi dörd ədəd parta düzəltməyi sifariş elədi və işin tez başa çatması üçün özü onları yağlı boya ilə rənglədi. Kitab-dəftər, müxtəlif dərsliklər, dərs vəsaitləri, ümumiyyətlə, yenicə təşkil olunmuş məktəb üçün bütün zəruri şeylər alındı. Həmidə xanım kənd camaatının ümumi yığıncağını keçirdi. Mirzə Cəlillə birlikdə uşaqlarını məktəbə qoymaq üçün kəndin kişilərini və onların arvadlarını dilə tutdu. Həmidə xanıma və artıq Kəhrizlinin ictimai-mədəni həyatına daxil olmuş Mirzə Cəlilə camaatın böyük etimadı və inamı olduğundan bəzi adamlar oğlanları ilə bərabər qızlarının da məktəbə getmələrinə tərəddüd etmədən razı oldular, bəziləri isə qızlarının kiçik bacı və qardaşlarını saxlamalarını, ev işlərində analarına kömək etmələrini bəhanə gətirərək övladlarını məktəbə göndərmədilər. Həmidə xanımın əksər qohumları isə qızlarının məktəbdə oxumalarına həvəslə razılıq verdilər. Birinci olaraq əmisi oğlu Əliş bəy qızı Qəmərin adını məktəbə yazdırdı. "Mirzə Cəlili ilk dəfə altı-yeddi yaşlarımda Kəhrizlidə Həmidə xanımın evində görmüşəm. Onlar təzəcə evlənmişdilər. Biz qonşu olmaqla bərabər, Həmidə xanımla əminəvəsi idik. Mirzə Cəlil atam Əliş bəyin xətrini çox istəyirdi. Hələ altı yaşım olanda, 1909-cu ildə o və Həmidə xanım atamla danışmışdı ki, mənim Kəhrizlidə təzə açılmış məktəbdə oxumağıma icazə versin. Atam razı olmuşdu.

Kəhrizlidə bir il oxudum. Sonra hansı səbəbə görəsə məni Tiflisə aparıb orada məktəbə qoydular. O zaman Mirzə Cəlilin qızı Münəvvər və onun rəfiqəsi Manya da gimnaziyada oxuyur, həftədə bir gün evə gəlirdilər. Həmin vaxtdan etibarən mən bilavasitə Mirzə Cəlilin himayəsi və tərbiyəsi ilə böyüməyə başladım və o, son günlərinədək mənə atalıq elədi...

Mirzə Cəlil "Molla Nəsrəddin"in müvəqqəti redaktorluğunu Məmmədəli Sidqiyə tapşırıb Kəhrizliyə gedəndə Münəvvəri, məni və Manyanı da özü ilə apardı.

Təhsilimi yenidən Kəhrizli məktəbində davam etdirdim" [4] – Qəmər xanım Əliyeva Mirzə Cəlil və Kəhrizli məktəbi haqqında xatirələrini belə davam etdirir. Həmidə xanım Cavanşir isə yazır ki, Qəmərin valideynləri savadsız adamlardı. Mənə hörmət edərək onu açdığım məktəbə kiçik ikən vermişdilər. Sonralar isə oxumağı davam etdirməyə qoymamış və yazıq qızı on üç yaşında ərə verərək bədbəxt eləmişdilər [2, s. 128].

Əliş bəy Cavanşirin belə bir addım atması, yəni qızının əlindən tutub məktəbə gətirməsi başqalarını da cürətləndirmiş və onlar da öz qız övladlarına təhsil vermək fikrinə düşmüşdülər. Həmidə xanımla Mirzə Cəlil birinci dərs ili üçün kifayət qədər, daha doğrusu, artıqlaması ilə şagird toplaya bilmişdilər: otuz oğlan, on qız! Beləliklə, hər ikisi birlikdə Kəhrizlidə ilk maarif işığı yandırmış, cəhalət qaranlığına qərq olmuş kəndin uşaqlarını təhsilə və mədəniyyətə qovuşdurmağa başlamışdılar.

İlk vaxtlar məktəbdə Mirzə Cəlil özü və o vaxtlar cəmi on altı-on yeddi yaşlarında olan qızı Münəvvər xanım dərs deyirdi. Azərbaycan dili və şəriət dərslərini isə Mirzə Səfi Axundov tədris edirdi. Olqa Alekseyeva, Mariya Afanasyeva, Valentina Semyonova, Qori Müəllimlər Seminariyasının son sinfindən çıxarılmış Salman Əlibəyov da məktəbdə dərs deməyə dəvət olunmuşdular. Həmidə xanımın qızı Mina xanım Davatdarovanın da dərs verməsi nəzərdə tutulmuşdu. Lakin həmin il Tiflisə kursa getdiyi üçün onun yerinə Mirzə Cəlil Gürcüstandan Xmaladze, daha sonralar isə Rusiyanın Samara şəhərindən Sonya Aleksandrova ad-familiyalı müəllimlər gətirtmişdi. Sonralar, 1918-ci ildə Həmidə xanım Şuşadan qohumu, müəllim Gülü Ağayevi də məktəbə dərs deməyə dəvət eləmişdi. Gülü müəllim ailəsi ilə birlikdə gəldiyindən Həmidə xanım hörmət əlaməti olaraq onları öz malikanəsində yerləşdirmişdi [3]. Mirzə Cəlil və Həmidə xanım məktəbdə çox gözəl bir beynəlmiləl pedaqoji kollektiv yaratmışdılar.

Mirzə Cəlillə Həmidə xanım avam valideynlərə təsir göstərməyi bacarır, məktəbə daha çox uşaq, xüsusilə qızları cəlb eləyə bilirdilər. Yoxsul şagirdlərə xüsusi qayğı ilə yanaşır, öz vəsaitləri hesabına onlara kitab, dərs vəsaiti, ayaqqabı, paltar alırdılar. Müəllimlərin aylıq maaşlarını verməyi isə Həmidə xanım öz boynuna götürmüşdü. Bir sözlə, məktəbin təlim-tərbiyə işləri yüksək səviyyədə idi. Həmin məktəbdə oxuyanların bir çoxu məktəbi və onun banilərini sonralar minnətdarlıq hissi ilə xatırlayır, xeyirxah əməllərindən söhbət açırdılar. Cəlil Məmmədquluzadənin ali keyfiyyətlərini heç vaxt yadından çıxarmayan Boyat kənd sakini Bəhram Əlifov xatirələrində yazır: "Molla Nəsrəddin" jurnalının redaktoru, görkəmli jurnalist Cəlil Məmmədquluzadə ilə ilk tanışlığım 1919-cu ildə kəndimizdə oldu. Mirzə Cəlil atamın vəfat etdiyini eşidib həmkəndlimiz Zeynal Sarıyevlə Boyat kəndinə hüzrə gəlmişdi. Kəndin adamları bu qayğıkeş və həssas insanla yaxından tanış olmalarına baxmayaraq, mən gənc olduğum üçün onu ilk dəfə görürdüm. O mənə təskinlik verdikdən sonra sözarası dedi:

– Oğlum, təhsilin varmı?

Mən azacıq savadlı olduğumu bildirdim. O dedi:

– Çox qəribədir, kənd yerində savadlı adam çox az tapılır. Mən bilmirəm güzgüyə baxmadan insanlar özlərini necə görə bilər? Ona görə də məsləhət bilirəm ki, oxuyasınız, gələcəkdə savad almaq üçün hər cür şərait olacaq.

Mən onun bu sözlərini heç vaxt unutmaram" [8].

Uşaqlıq və ilk gənclik illərini Cəlil Məmmədquluzadənin ailəsində keçirmiş, sonra Kəhrizli kənd məktəbində müəllim, eyni zamanda tibb bacısı və mühasib vəzifələrini yerinə yetirmiş Mariya Jukova da həmin o unudulmaz və xoş günləri belə xatırlayır: "Həmidə xanımgilin malikanəsində kəhrizlərdən əlavə məktəb və kitabxana da vardı. Təsərrüfat işlərinin çoxuna Pavel Mjavanadze və Ağalar baxırdı. Pavelin arvadı Olqa Alekseyevna məktəbdə rus dilindən dərs keçirdi. Onlar Kəhrizlidən köçüb gedəndən sonra rus dilindən bir az Valentina Semyonova, ondan sonra müfəttiş İvanovun razılığı ilə mən dərs deməyə başladım" [2, s. 185]. Öz qaydası ilə fəaliyyətini davam etdirən bu məktəbin səsi-sorağı artıq 1917-1918-ci illərdə bütün Qarabağa yayılmışdı.

**Toxuculuq emalatxanası.** Şuşada neçə vaxt idi ki, kiçik və ortabab bir toxuculuq emalatxanası fəaliyyət göstərirdi. Burada Vasilyev familiyalı təlimatçı bir ustanın rəhbərliyi ilə yundan və pambıqdan müxtəlif çeşidli parçalar toxunurdu. Şəhərdə belə bir emalatxananın mövcud olduğunu eşidib-bilən Həmidə xanım onun işləri ilə maraqlanmış və sexi müştəri gözü ilə nəzərdən keçirəndən sonra oranı almaq fikrinə düşmüşdü. Dərhal da Mirzə Cəlilə müfəssəl bir məktub yazıb məqsədini bildirmiş və bu işlə əlaqədar Şuşaya gəlməsini xahiş etmişdi.

Çox çəkmədən Mirzə Cəlil gəlib çıxdı. Həmidə xanımla birlikdə gedib emalatxanaya baxdı, onun fikrini bəyəndi. Həmidə xanım dedi ki, əgər on-on iki dəzgahlı bir emalatxana düzəldə bilsək, on-on beş nəfər yoxsul qız-gəlin burada işləyib çörəkpulu qazana bilər [5].

Emalatxananı aldıqdan sonra onlar təlimatçı Vasilyevin köməkliyi ilə dörd dəzgah sifariş etdilər, sonra daha səkkizini də tapdılar. Bu dəzgahların 24 min manat dəyərində olan dəmir hissələri Həmidə xanımın Tiflisdə yaşayan kürəkəni mühəndis Məmmədbəyov vasitəsilə Şuşaya gətirildi. Həkim Əbdülkərim bəy Mehmandarovun yaxından köməkliyi ilə dəzgahları "Bazar başı" meydanının yaxınlığındakı məsciddə yerləşdirdilər. Lakin yer darısqallığından Həmidə xanım məşhur tacir və şair Məşədi Əyyub Bakinin Merdinli məhəlləsindəki üçmərtəbəli evini onun ailəsindən kirayəyə götürdü və emalatxananı birinci mərtəbədə yerləşdirdi, özləri isə ikinci mərtəbədə yaşamağa başladılar. Beləliklə, az müddət içərisində Həmidə xanım işə xeyli qız-gəlin cəlb elədi. Onlar yavaş-yavaş dəzgahlarda işləməyi öyrəndilər. Mirzə Cəlil emalatxana üçün Kəhrizlidən az-az yun alıb göndərirdi. Burada, əsasən, corab, əlcək, isti köynək toxunur, tullantılardan isə başqa məqsədlər üçün istifadə olunurdu. Sonralar emalatxananın istehsal etdiyi məhsulların çeşidləri də artdı, palaz, kilim, xalça da toxunmağa başladı. Həmidə xanım qadınların əməkhaqlarını natura ilə yox, vaxtlı-vaxtında nağd pulla ödəyirdi ki, bu da onların ürəyincə olurdu [5].

Həmin vaxt ordu hissələri ilə Şuşaya gəlmiş Azərbaycan Demokratik Respublikasının hərbi naziri general-leytenant Səməd bəy Mehmandarov yaxın qohumu Həmidə xanım Cavanşirin burada olduğunu bilib onu ziyarət elədi, gördüyü işlərlə maraqlandı, toxuculuq emalatxanasına baş çəkdi, toxucu qadınların işlərini, eləcə də müəssisə rəhbərlərini tərifl ədi, ünvanlarına xoş sözlər söylədi. Və söz verdi ki, bundan sonra Azərbaycan Ordusu üçün lazım olan geyimlərin tikilməsini bu emalatxanaya sifariş edəcək [2, s.186].

Emalatxanada işlər yavaş-yavaş qaydasına düşür və məhsulun keyfiyyəti getdikcə yaxşılaşırdı. Lakin gəlir çıxarı ödəmirdi. Mənfəət isə yalnız bu olurdu ki, yoxsul qadınlar faydalı əməyə cəlb olunaraq sənət öyrənir, heç olmasa, ailə büdcələrinə xeyir gətirirdilər. Həmidə xanımın təşkil elədiyi bu emalatxana fəaliyyətini təxminən iki il davam etdirdi.

1918-ci ildə Həmidə xanım Cavanşir Kəhrizli kəndində də kiçik bir toxuculuq emalatxanası yaratdı. Və bu emalatxananı təşkil etməklə kənddə çox adamları aclıqdan, səfalətdən qurtardı. Bu işdə Mirzə Cəlilin də xidməti az deyildi. O, Həmidə xanıma yaxındanköməklik edir, yüksək qayğı göstərirdi. Cəlil Məmmədquluzadənin ailəsində böyümüş və təhsil almış Leyla Əliyeva xatirələrində bu barədə yazır: "1919-cu ildə on doqquz yaşım vardı. Şuşada xalçaçılıq emalatxanasında işləyirdim. Bir gün eşitdim ki, bütün Qarabağda məşhur olan Həmidə xanım – "Molla Nəsrəddin"in arvadı emalatxanamıza gəlib. O, bizimlə söhbət elədi və buradakı bacarıqlı toxucu qızlardan bir neçəsini, o cümlədən məni də götürüb Kəhrizli kəndinə apardı. Onun Kəhrizlidə yenicə açdığı toxuculuq emalatxanasında işləməyə başladıq.

Həmin ildən mən Mirzə Cəlilin simasında özümə ikinci ata, qayğıkeş bir himayədar tapdım. Kəhrizlidə böyük ədiblə tanış olub bütün varlığımla onun istedad və zəkasına vuruldum. Amma bu, hələ ilk tanışlıq idi" [9].

...1921-ci ildə Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbriz səfərindən qayıtdı. Azərbaycan Xalq Təsərrüfatı Şurası Şuşadakı toxuculuq emalatxanasına rəhbərlik etməyi Həmidə xanım Cavanşirə həvalə elədi. Hökumət Kəhrizlidə olan dəyirmanını və təsərrüfatını da öz köhnə sahibinə qaytardı. Sonra Azərbaycan Xalq Komissarları Sovetindən Şuşa Tikiş Fabrikinə rəhbərlik etmək üçün ona mandat verildi... 1922-ci ilin iyununda Həmidə xanım Bakıdan Şuşaya, Mirzə Cəlil isə Kəhrizliyə qayıtdı. Kəhrizlidə bağlanmış emalatxananı bərpa etmək üçün Həmidə xanım ərizə ilə yerli hökumətə müraciət eləyib toxuculuq dəzgahları aldı. Mirzə Cəlil isə müxtəlif təşkilatlara məktub yazaraq bu işə icazə verilməsinə və lazımi şərait yaradılmasına nail oldu. Bununla əlaqədar 1922-ci ilin payızında Azərbaycan Xalq Təsərrüfatı Şurasının müfəttişinə göndərdiyi ərizənin surəti yazıçının arxivində saxlanılır. Həmin ərizədə Mirzə Cəlil təkcə Kəhrizlidə yox, qonşu Hüsülü kəndində də toxuculuq emalatxanasının açılmasına icazə verilməsini xahiş edirdi [2, s.298].

Nəhayət, Kəhrizlidə toxuculuq emalatxanası işə başladı. Həmidə xanımın bu kiçik sənaye müəssisəsini yenidən bərpa etməkdə məqsədi kənd qızlarına toxuculuq sənətini öyrətmək idi. Leyla Əliyeva onlara bu sənəti öyrətməyə söz verdi və ürəklə işə girişdi. Keçmiş toxucu xatirələrinə davam edərək yazır: "Mirzə Cəlilin 1921-ci ildə ailəsi ilə birlikdə Təbrizdən qayıtması mənim üçün böyük bir bayram oldu. O vaxt mən, əvvəlki kimi, Kəhrizlidə yaşayırdım. Yenə Həmidə xanımın 1922-1923-cü illərdə bərpa etdiyi xalçaçılıq emalatxanasında işləyirdim.

Mirzə hərdənbir kəndə gəlirdi. O, bir neçə dəfə mənə Bakıya gedib məktəbə girməyi, sənət sahibi olmağı məsləhət gördü. Mən ailə vəziyyətimin ağır olduğunu, anamı tək qoyub getmək istəmədiyimi söylədim. Belə olduqda Mirzənin məsləhəti ilə Şuşada məktəbə girdim.

Həmidə xanım hökumətdən geri aldığı dörd tikiş dəzgahını Kəhrizliyə apartdırdı, köhnə məktəb binasında yerləşdirdi. Kənd emalatxanasında çalışan qızlardan Qəmər, Xırda, Telpəri və başqaları can-başla işə başladılar. Toxuculuq emalatxanasının anbarında hələ 1919-cu ildən qalma xeyli pambıq ilk günlərdə kara gəldi. Bu pambığın bir hissəsi ciyraxdan keçirilib, sap əyirmək üçün qızlara paylanıldı. Həmin saplardan material toxunurdu. Həmidə xanım isə Tiflisdən sap gətirtdirirdi. Çöldə bitən yabanı süpürgənin kökündən istifadə edərək toxunulan parçanı boyatdırır, camaata paylatdırırdı. Kasıb qadınlara isə parçanı pulsuz verirdi" [2, s.310]. Bakıdakı V.İ.Lenin adına Toxuculuq Fabrikindən iplik almağı Mirzə Cəlil öz öhdəsinə götürmüşdü. Bakıdan iplik alana qədər isə burada hələlik qızlara yavaş-yavaş toxuculuq öyrədilirdi.

1924-cü ilin yazında Azərbaycan Fövqəladə Komissiyasının sədri Mircəfər Bağırov xidməti vəzifəsi ilə əlaqədar Kəhrizliyə gəlib çıxmışdı. Azərbaycan çekistlərinin rəhbəri burada Həmidə xanımla görüşdü, onun toxuculuq emalatxanasına baş çəkdi, qız-gəlinlərin əl işləri çox xoşuna gəldi. Və Həmidə xanıma söz verdi ki, ən sərfəli şərtlərlə onlara Bakıdan 100 pud iplik göndərmək üçün əlindən gələn köməyi edəcək [2, s.311].

Mirzə Cəlil isə Bakıda çox yerə ayaq döydü, çalışdı, ancaq iplik tapa bilmədi. Emalatxananın işçiləri iş dayanmasın deyə hərəsi bir neçə girvənkə ip tapıb gətirdi və əllə əyrilmiş ipək saplardan şal, süfrə, dəsmal, çesunçaya bənzər parça toxumağa başladılar. Çesunçaya oxşar parça Mirzə Cəlilin o qədər xoşuna gəldi ki, həmin maldan özü, uşaqları və yaxın adamları üçün kostyum tikdirdi...

Ümumiyyətlə, istər çar hökuməti dövründə, istərsə də sovet hakimiyyətinin ilk illərində Həmidə xanım Cavanşirə məxsus mülkiyyətin Gəncədə, Tiflisdə, Bakıda olan bütün sənədləşdirmə işləri ilə Mirzə Cəlil məşğul olur, onun təsərrüfatını idarə edirdi. Bununla əlaqədar o, gah həmin şəhərlərdə müxtəlif idarələrə gedir, gah da Kəhrizlidə kəndlilərin hökumətlə bağlı işlərinə kömək edirdi.

**Təsərrüfat işləri.** Kənd həyatı Mirzə Cəlilə ilk günlərdən cansıxıcı görünsə də, sonralar bu yaşayışa elə öyrəşmiş, elə alışmışdı ki, Kəhrizlidən ayrı düşəndə oradan, onun adamlarından ötrü bərk darıxır, harada olur-olsun özünü kəndə tez çatdırmağa çalışırdı. Mirzə Cəlil kəndə gələrkən Həmidə xanımın yaxın qohumları ilə tez-tez Kəhrizlini başdan-başa gəzir, Əhməd bəy Cavanşirdən qalma müxtəlif tikililərə, xüsusən də yeraltı su kəmərinə tamaşa edir, gözəlliklərini gözlərinə köçürür, necə deyərlər, darıxmağa vaxtı qalmırdı. Kəhrizlidə keçirdiyi günlər getdikcə ona daha çox maraqlı görünür, bu həyatdan daha çox xoşu gəlir, böyük və xüsusi zövq alır, kəndə ürəkdən bağlanırdı. Həmidə xanım xatirələrində yazır ki, Mirzə Cəlil faytonçu ilə yanaşı, qozlada oturmağı sevirdi. Bəzən atların yüyənindən özü tuturdu. Kəndlilər, nökərlər və muzdlu işçilərimizlə uzun-uzadı söhbət edir, onların həyat tərzini, adət və məişətlərini öyrənirdi [11, s. 37]. Həmidə xanım xatirələrini davam etdirərək yazır: "Bir dəfə kefinin kök vaxtında Mirzə Cəlil mənə dedi: "Kəhrizliyə gələrkən hələ uzaqdan yan-yana düzülmüş hündür qovaq ağaclarını görüb malikanəmizi tanıyır və bu zaman ürəyim sevinclə döyünməyə başlayır, doğma ailəmə, mənim üçün əziz olan dost-tanışa tez qovuşmaq üçün faytonçunu tələsdirirəm. Mən özümü ancaq burda, təbiətin bu sakit guşəsində xoşbəxt hiss edirəm. Bu yerlərin gözəl binaları, füsunkar aylı gecələri, kölgəli bağları, güllərin ətri, bülbüllərin cəh-cəhi, "İsaq-Musaq" deyib səsləşən quşların ahəngi, çoban tütəklərinin səhər erkən ətrafı bürüyən xoş avazı yorğun əsəblərimi sakitləşdirib, fikirlərimə qol-qanad verir. Mən jurnalın qarşısında öz borcumu yerinə yetirdikdən sonra ömrümün son illərini bu sakit guşədə keçirmək istərdim" [11, s. 37].

Mirzə Cəlil kəhrizlilərin təhsili ilə yanaşı, şəxsi problemlərinə də fikir verir, onlara yaxından köməklik göstərirdi. Böyük ədibi həyatda çox görmüş Şirxan Hüseynov onun haqqındakı xatirələrində deyir: "Cəlil Məmmədquluzadə əsəblərini sakitləşdirdiyi, mənəvi zövq aldığı bu yerlərə təkcə istirahət xatrinə gəlmirdi. O, hər dəfə gələndə əhalinin qeydinə qalır, camaatla çiyin-çiyinə çalışır, kəndin müəyyən işlərinə kömək edirdi. O, nəinki mühüm işlərdə iştirak edir, habelə xırda təsərrüfat işlərində də çalışaraq dəyirmana gedir, taxıl səpir, əkinləri suvarır, bağdakı ağaclara qulluq edirdi" [7].

Mirzə Cəlilin kənddəki fəaliyyəti təkcə məktəblə, maariflə məhdudlaşmırdı. O, kəndlilərin əməyini yüngülləşdirmək üçün bir sıra faydalı təşəbbüslərə də əl atırdı.

1909-cu ildə Həmidə xanımla birlikdə mədəni bağçılıq təsərrüfatı ilə məşğul olmağı qərara almışdı. Rus dilində çıxan qəzetlərin birində David Şaraşidze ad-familiyalı bir gürcü bağçılıq mütəxəssisinin qaneedici maaşla iş axtarması haqqında elan çıxmışdı. Və Həmidə xanım onunla danışıb ayda 25 manata onu işə götürdü. Gürcü mütəxəssis Kəhrizliyə gəldi və Əhməd bəy Cavanşirin baxımsız qalmış bağına əməlli-başlı əl gəzdirdi, əlavə olaraq təzə bir bağ da saldı. Gənc bağban Tiflisə Həmidə xanıma sifariş göndərib Kəhrizliyə yüzlərlə ağac tingi göndərməsini xahiş elədi. Həmidə xanımın göndərdiyi bu tinglər Yevlaxda yubandı və yay vaxtı olduğundan quruyub yandı. Lakin Mirzə Cəlil özü Qori şəhərinə gedib oradan xeyli sayda ağac tingi gətirdi.

Növbəti ildə Mirzə Cəlil Rusiyanın Rostov şəhərindən bir neçə növ alma, armud, ərik tingi gətirilməsini sifariş elədi. Naxçıvandan və İrəvandan da yaxşı meyvə növlərinin tingləri gətirildi. Mirzə Cəlil təzə salınmış bağı, xüsusilə də "əkinçilikdə mütəxəssis olan, bağbanlıqda çox böyük təcrübələr hasil edən və bütün həyatını... bostançılıq və bağbanlıqda keçirən, özündən cəmi beş-altı yaş böyük olan doğmaca dayısı Kərbəlayı Əli Babayevin Naxçıvandan göndərdiyi ərik, alma, armud, badam ağaclarını daha çox sevirdi. Çünki bağçılıq və dirrikçilik üzrə gözəl bir mütəxəssis olan Əlişdan dayısı lap kiçik yaşlarından bacısı oğlunda təbiətə, bağ-bağata böyük həvəs aşılamış, maraq oyatmışdı. Rostovdan gətirilmiş tinglərin bir hissəsini öz həyətlərində əkmiş, bu ağaclardan əkmək istəyən kənd adamlarına da paylamışdı. Bu ağaclar sonralar bol bəhrə verməyə başladı.

1910-cu ildə Qarabağda pambığın əvvəlki illərdəkindən daha yaxşı məhsul verəcəyi gözlənilirdi. Çünki nə quraqlıq baş vermişdi, nə xəstəlik olmuşdu, nə də çəyirtkə vardı. Həmidə xanıma məxsus torpaqlar əkib-becərmək üçün o qədər də yararlı olmadığından o, qonşu bəylərdən bir neçə desyatin torpaq sahəsi icarəyə götürüb kəndlilərə vermişdi. Həmidə xanım əkin üçün toxum, suvarma üçün su da ayırmışdı. Həmin il, doğrudan da, məhsul gözlənildiyindən çox olmuşdu. Sahələrdə məhsulun qarovulunu təşkil etmək, yığılmış pambığı tərəzidə çəkmək, müəyyən olunmuş yerə daşımaq üçün işə can yandıran və etibarlı adamlar lazım idi. Belə adamlar tapmaq üçün Mirzə Cəlil Gürcüstana yollanmış, dostu Qotua vasitəsilə altı nəfər işgüzar və təmiz qəlbli gürcü tapıb Kəhrizliyə göndərmişdi. Bu gənc işçilərin sayəsində məhsul vaxtlı-vaxtında və səliqə-sahmanla toplanmışdı. Mirzə Cəlil və Həmidə xanım həmin gürcülərə qədərindən də çox əməkhaqqı verərək onları Gürcüstana yola saldılar. Onlardan biri – Lavrenti Qogeliya isə xeyli müddət Kəhrizlidə qaldı, təsərrüfat işlərinə kömək elədi. Hətta o, sovet hakimiyyətinin ilk illərində – 1921-ci ildə yenidən Kəhrizliyə gəlmiş, Həmidə xanımın evinin və dəyirmanlarının təmirində köməkliyini əsirgəməmişdi. Başqa biri – Pavel Mjavanadze də uzun illər Mirzə Cəlilgildə yaşamış, Kəhrizli məktəbinin müəllimi Olqa Alekseyevna ilə ailə həyatı qurmuşdu [12].

Dədə-baba düşmənləri Həmidə xanımı və Mirzə Cəlili o qədər də sevmir, onların kəndə və təsərrüfata gətirdikləri yenilikləri qəzəblə qarşılayırdılar. Bir sözlə, bu yenilikçi insanları gözləri götürmürdü. Həmidə xanımı da, Mirzə Cəlili də ləkələmək üçün onlar yığışıb həmişə torpaq üstündə mübahisə edən və münaqişəyə səbəb olan bəylərdən birini kəndlilərə döydürmüş və bunun da günahını Mirzə Cəlillə Həmidə xanımın üstünə atmışdılar. Döyülmüş bəy də Yelizavetpol qubernatoruna teleqram vuraraq onlardan şikayət eləmişdi: "Həmidə xanımın əri Cəlil Məmmədquluzadə kəndlilərimizi aqrar məsələlərlə bağlı bizim üstümüzə qaldırır. Xahiş edirik qəti tədbir görün!" [2, s.143]. Lakin həmin bəylərin məkrli məqsədləri həyata keçməmişdi. Qubernator Kovalyov Həmidə xanımı da, Mirzə Cəlili də yaxşı tanıdığından və xalq üçün faydalı iş gördüklərini bildiyindən bəylərin teleqramına heç fikir də

verməmişdi. Qubernator sonralar Həmidə xanıma demişdi ki, həmin bəylər onun haqqında tez-tez belə donoslar göndərirlər, amma o, bu donosları birbaşa arxivə göndərir. Daha sonralar da Həmidə xanımla düşmənçilik edən bəylər bu qadının işlərinə hər vəchlə mane olmağa çalışır, qohumlarını və qonşularını da öyrədərək onların üstünə qaldırırdılar. Həmidə xanım bəylərin əməllərinin birinin üstünü açaraq yazır: "Biz evimizin qabağında Tehran tənəyindən üzümlük salmışdıq. Bu üzüm növünü cücülər məhv edə bilmirdi. Mən bu növü qonşumuz, aqronom və şərabçı Pirim Pirimovdan almışdım. Biz Cəlillə tənəyin peyvəndinin yaxşı tutmasına çox sevinirdik və ümid edirdik ki, ya bu il, ya da yeni ildə artıq üzümlüyün bəhrəsi masamızın üstündə olacaq. Gecələrin birində bu bəylərin nökərləri çəpəri söküb, mal-qaranı üzümlüyə buraxır və körpə tənəkləri tamamilə məhv edirlər.

Ümumiyyətlə, mənim qonşularım vaxtaşırı bizim əkdiyimiz, yetişdirdiyimiz bağ-bağatı tələf edir, ziyan vururdular. Heç bir çəpər, heç bir qarovul bu ikiayaqlı çəyirtkələrin qarşısını ala bilmirdi" [2, s. 147].

Kəhrizlidə Mirzə Cəlil kənd təsərrüfatı işlərində böyük həvəslə çalışırdı. O, bir neçə yük atı və ikikavanılı kotan almışdı. Şum işlərinə şəxsən özü nəzarət edir, toxumluq dəni ayırır və təmizlətdirir, səpin və suvarma işlərini vaxtında edirdi. Kəhrizlidən Şuşaya Həmidə xanıma 25 avqust 1918-ci il tarixli məktubunda Mirzə Cəlil gördüyü işlər haqqında yazır, bir növ, hesabat verirdi: "Xırmanın işini davam etdirirəm. Arpanı döydürmüşəm, indi isə buğdanı bitirməkdəyəm, rəncbər çörəyi isə hələ davam edəcək. Ortaqlarımız da zəmilərinin məhsulunu döyməkdədirlər, hələ yaxşı vaxtda işlərini bitirməzlər. Darını həyətə komalamışıq. Ancaq samanlıq artıq ağızbaağızdır, hətta eşik də samanla doludur. Həyət-bacada taya əlindən yer yoxdur. Anbarda yetərincə dən var. Ancaq belə bahalıq zamanında bu qədər məhsul dolanışıq üçün bəs edəcəkmi, bilmirəm... Dəyirman birtəhər işləyir... Dəyirmanı bacardığım qədər özüm yola verirəm, ancaq vaxtım çox azdır, üyütmə bütün vaxtımı aparır. Bizim soğan bostandan toplanıb qurtardı... Anbarımıza xeyli yemiş-qarpız toplanıb, onları sizdən ötrü saxlamışıq... Həm də ərik qurusu, albuxara, əncir, zoğal, iki pud bəhməz və başqa azuqəmiz vardı. Qışa bir neçə çuval qoz olacaq. Narımız da boldur. Alıcıları da var artıq, hələ ki danışıqlar gedir. İşlərimiz sanki öz qaydasındadır..." [2, s.151].

Mirzə Cəlil payızlıq taxıl və arpa əkdirdi, payızlıq işlərini qurtarıb, dekabrda Şuşaya getdi və heyranlıqla Həmidə xanıma dedi: "Bilirsənmi, Həmidə! Bu il taxılla arpa necə cücərib? Ona görə ki, vaxtında əkdik. Gələn il toxum səpməyə yer tapmayacaqsan. İstəyirəm ehtiyac və qıtlıq çəkməyək. Bu dəfə kəndlilər də mənə baxıb əkinə tez başladılar. Çəyirtkə, dolu, quraqlıq, başqa təbii fəlakətlər olmasa, bol məhsul gözlənilir" [6, s. 39].

Təbrizdən qayıdandan sonra Həmidə xanıma irsən mənsub olan dədə-baba mülkiyyətinin böyük bir hissəsini, o cümlədən də dəyirmanını və Kəhrizlidəki təsərrüfatının idarəsini geri qaytardılar. Üç ildən çox təmir olunmayan və baxımsızlıq ucbatından kəhrizin axarı başqa səmtə yönəlmiş, kəndin düz ortasından keçən kəhrizin isə suyu xeyli azalmışdı. Bu səbəbdən də dəyirman yaxşı işləmirdi, tökülübdağılmışdı, təmirə ciddi ehtiyacı vardı. İşi yenidən canlandırmaq üçün Mirzə Cəlil məsləhət gördü ki, Həmidə xanım Kəhrizliyə qayıtsın. Nəhayət, 1927-ci il avqustun 30-da o, kəndə qayıtdı. Mirzə Cəlil də dağıdılmış təsərrüfatlarını bərpa etmək üçün kəndə gəlməyə hazırlaşırdı. O, Bakıda bir çox xırda-para işlərini yekunlaşdırıb dekabrın 8-də Kəhrizliyə gəlib çıxdı. O, Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun icazəsi və köməkliyi ilə Bakıdan Həmidə xanıma bir fayton alıb hədiyyə etmiş, iki at almaq üçün 10 milyon manat pul gətirmişdi.

Mirzə Cəlil, necə deyərlər, əl-qolunu çırmalayıb işə başladı. Bakıdan gətirdiyi pulla mal-qara aldı, dəyirmanı təmir elətdirdi, bağ-bağçanın, həyətin uçulmuş çəpərlərini dikəltdi, kəhrizləri təmizlətdirdi. Və onların kənd həyatı yavaş-yavaş öz axarına düşdü.

1922-ci ildəki çörək qıtlığı bərk aclığa səbəb olmuşdu. Hamı çörək istəyirdi. Ona görə də Mirzə Cəlil bütün gününü dəyirmanda keçirir, aclıq çəkən kəndlilərə un paylayır, kəndlilərin bu zəruri və vacib ehtiyaclarını minimum dərəcədə də olsa təmin etməyə çalışırdı.

**Siyasi fəaliyyəti.** Həmidə xanım Cavanşirin xatirələrindən məlum olur ki, Cəlil Məmmədquluzadə hələ "Molla Nəsrəddin" jurnalını nəşr etməzdən əvvəl əqidə dostu Ömər Faiq Nemanzadə ilə birlikdə dövrün ən qabaqcıl ideyalarına, proletar işinə maraq göstərmiş, Tiflisdə baş verən siyasi hadisələrdə fəal iştirak etmişdi. Həmidə xanım xatırlayır: "Oktyabrın 13-də (1905-ci il – *V.Q.*) axşamçağı Mirzə Cəlil dostu və həmkarı Ömər Faiq Əfəndi Nemanzadə ilə birlikdə gəldi... Bu görüşümüzdə Faiq Əfəndi bu yaxınlarda Naxalovkada (Tiflisdə məhəllə – *V.Q.*) böyük mitinqdə iştirak etdiklərindən və həmin mitinqdə müsəlman icması adından çıxış etdiklərindən də söhbət açdı..." Sonra o, xatirələrini davam etdirərək yazır: "Oktyabrın 19-da tək günü Sofiya xanımla qızlarımıza baş çəkmək üçün instituta getdik (Sofiya xanımın iki qızı orada təhsil alırdı). Geri qayıdanda Qolovinski prospektində gördük ki, Olqinski küçəsindən böyük bir izdiham gəlir. Adamlar əllərində qırmızı bayraqlar tutmuşdular. İzdiham şəhər dumasının qarşısında dayandı, mitinq quruldu, natiqlər danışdı, padşaha, nazirlərə və başqalarına lənətlər yağdırıldı. Sonra nümayişçilər Baryatinski enişi ilə Vorontsov körpüsünə sarı yönəldilər. Biz də nümayişçilərin ardınca düşərək onlara qoşulduq. Biz təzə tanışlarımız Mirzə Cəlili və Faiq əfəndini də izdihamın arasında gördük. Onlardan öyrəndik ki, nümayişçilər siyasi məhbusların azad olunması tələbi ilə Metex qalasına gedirlər... Onlar tətillərdə iştirak edir, mitinqlərdə çıxış edirdilər. Onların əllərində üzərində "Yaşasın azadlıq!" sözləri yazılmış qırmızı bayraq var idi.

Mirzə Cəlil və Faiq əfəndi həmin günlərdə vərəqələr çap edir, nümayişlərdə və mitinqlərdə iştirak edirdilər..." [6, s. 16].

...Cəlil Məmmədquluzadənin kiçik qardaşı Mirzə Ələkbər Məmmədquluzadə İran inqilabçısı, 1906-1911-ci illər İran inqilabının iştirakçısı idi və Səttarxanın ən yaxın silahdaşlarından sayılırdı. Yeddi il əzablı məhbus həyatı yaşamışdı. Onu Təbrizdə həbs edib rus hökumətinə təhvil vermişdilər və o, İrəvan həbsxanasında yatırdı. Mirzə Ələkbəri daha ağır cəza gözləyirdi: ya asılmalı, ya da katorqa cəzasına məhkum edilməli idi. Mirzə Cəlil qardaşının həbs edildiyini yalnız altı aydan sonra bilmişdi.

Qardaşının bu acı taleyindən xəbər tutan Mirzə Cəlil 1910-cu ilin oktyabr ayında təcili olaraq Tiflisdən Kəhrizliyə gəldi. Həmidə xanım xatirələrində yazır ki, bu hadisədən dəhşətə gələn Mirzə Cəlil demişdi ki, o, bu dərdə dözə bilməyəcək. Əgər İrəvan Dairə Məhkəməsi onu edam cəzasına məhkum etməsə, katorqaya göndərəcək və əlavə edirdi ki, işdi-şayət, sürgün eləsələr də, dalınca Sibirə gedəcək.

Əlbəttə, bu məsələ Həmidə xanımı da düşündürürdü. Dərhal o, iki ən etibarlı və ən yaxşı vəkil tapmaq üçün lazım olan 1 200 manat pulu düzəldib ərinə verdi. Mirzə Cəlil İrəvana yola düşdü, iki vəkil tapdı. Onlar Mirzə Ələkbərin mühakimə olunmasını yaza qədər uzatmağa nail oldular və Mirzə Cəlil geri – Kəhrizliyə qayıtdı.

Mirzə Ələkbərin məhkəməsi 1911-ci il may ayının sonlarında oldu. Məhkəmədə Cəlil Məmmədquluzadə də iştirak edirdi. Onun çox əlləşib-vuruşduqdan sonra tapdığı həmin o güclü vəkillərin bacarığı sayəsində İrəvan Dairə Məhkəməsi Mirzə Ələkbərə cəmi iki ay şərti həbs cəzası kəsdi. Üstəlik də, onu qardaşına təhvil

verdilər. Mirzə Cəlil qardaşını da götürüb geri qayıtdı. Bundan sonra başını salamat saxlasın deyə Həmidə xanım öz adamlarından bir neçəsini ona qoşub birdəfəlik Kəhrizlidə yaşamağa göndərdi.

1912-ci ilin yayında Həmidə xanım ailəsi ilə Şuşaya yaylağa gedəndə Mirzə Ələkbəri də özü ilə aparmışdı. O istəyirdi ki, qaynı ikiaylıq cəzasını Şuşa həbsxanasında çəksin. Həmidə xanım həbsxana həkimindən xahiş eləmişdi ki, Mirzə Ələkbərin səhhəti ilə müntəzəm maraqlansın və onu əməlli-başlı müalicə eləsin. Həmidə xanım hər gün Mirzə Ələkbərə yemək göndərirdi. Və beləliklə də, Mirzə Ələkbər qısamüddətli cəzasını çəkib qurtardı...

1918-ci ilin yayında Qarabağda erməni-müsəlman davası yenə də alovlanmağa başladı. Daşnaklar Əsgəran yolunu kəsmiş, Şuşa ətraf yerlərdən təcrid olunmuşdu. Mirzə Cəlilin ailəsi Şuşada, özü isə Kəhrizlidə qalmış, əlaqələri tamam kəsilmişdi. Bir-birindən çox narahat idilər. Mirzə Cəlil, demək olar ki, hər gün kənddən vurub Ağdama gəlir, Həmidə xanımgildən xəbər tutmağa çalışırdı. Əsas yol bağlandığından o, Şuşaya gizli yollarla getməyə can atırdı. Lakin iki dost – Malıbəylidən olan Mayıl Səlimov və gülablılı Heydər Hüsüyev (akademik Əziz Mirəhmədov yazılarının birində Heydəri Cəlil Məmmədquluzadənin əvvəlki arvadından olan oğlu Heydərlə dəyişik salır) onu bu qorxulu yoldan çəkindirmiş və Mirzə Cəlilin Həmidə xanıma yazdığı məktubu od-alov içərisindən keçərək özləri Şuşaya aparmışdılar.

Mayıl həmin vaxtlar maraqlı, yaddaqalan hadisələrlə də üzləşirdi. Bir gün o, dostu Heydərlə Gülablıdan iş dalınca Ağdama getmişdi. Ağdam karvansarasının qarşısı izdihamla dolu idi. Adamlar topa-topa ağacların kölgəsinə yığışıb söhbətləşirdilər. Şuşa tərəfə getmək istəyənlər bir yerə toplaşmışdılar və zabitlərdən onlara kömək göstərmələrini xahiş edirdilər. Birdən Mayılın gözü həmin adamların içərisində səliqə ilə geyinib-kecinmiş bir nəfərə sataşdı. Tanış gəlirdi, onu hardasa görmüşdü, amma yadına sala bilmirdi. Yaddaşını silkələdi, yadına düşdü. Bu, Mirzə Cəlil idi. Yeddi-səkkiz il əvvəl Malıbəylidə görmüşdü onu, kənddə Cəlil Məmmədquluzadə – "Molla Nəsrəddin"lə keçirilən görüşdə. Dərhal Mayıl da, Heydər də ona yaxınlaşdılar, salam verdilər. Mayıl onunla hal-əhval tutmağa başladı:

– Mirzə, necəsiniz, xeyir ola burada durmaqda?! – deyə tanışlıq vermək istədi. – Mən sizi tanıyıram, bizim kənddə görmüşəm.

– Hansı kənddə?! – Mirzə Cəlil təəccüblə soruşdu.

– Malıbəylidə, Mirzə!

– Hə, hə! Mən o kənddə olmuşam! Gör üstündən neçə illər keçib?! – deyə Mirzə Cəlil Malıbəylidən olan tanışları ilə maraqlandı, onlara salam-dua göndərməyi də unutmadı.

Amma Mirzə Cəlilin üz-gözündə bərk nigarançılıq duyulurdu. Mayıl onun pəjmürdəliyinin səbəbini soruşanda Mirzə Cəlil:

– Bizim uşaqlar Qaladadır, yollar xaraba da ki, bağlı. Nə o tərəfə gedən var, nə bu tərəfə gələn. Mən onlardan bərk narahatam, onlar da, yəqin, məndən nigarandırlar. Ürəyim az qala partlayır! Ailəmdən xəbər tutmaq üçün hər gün kənddən bura gəlirəm ki, görüm birtəhər Şuşaya gedə bilərəmmi? Amma heç cür mümkün olmur. İstəyirəm meşələrlə, gizli yollarla gedim, – deyə əlini qarşıda görünən dağlara tərəf uzatdı.

Mayıl da, Heydər də Mirzə Cəlilə etirazlarını bildirdilər. Mayıl dedi:

– Mirzə, siz nə danışırsınız?! Yollar çox qorxuludur, meşələr də erməni quldurları ilə doludur. Biz gizli yolları yaxşı tanıyırıq. Nə qulluğunuz varsa, buyurun, yerinə yetirək. Sizsə qalın Ağdamda, dediyiniz vaxt görüşərik.

Mirzə Cəlil ani fikrə dalıb dedi:

– Uşaqlar, onda mən bir məktub yazım, təcili çatdırın Şuşada Həmidə xanıma.

Və ağacın kölgəsindəki kötüyün üstündə oturub kağıza nəsə yazdı, dörd qatlayaraq onlara verdi.

– Bax, sabah yox, birisi gün sizi elə buradaca gözləyəcəyəm! – deyib, yenə də nigarançılıqla onların üzünə baxdı.

Mayılla Heydər Mirzə Cəlili arxayın salıb, xudahafizləşərək dərhal işlərinin dalınca yollandılar və axşam düşəndə geri – Gülablıya döndülər. Yaraqlanıb-yasaqlanıb Malıbəyliyə adladılar, oradan da gecənin qaranlığında Əylis meşəsindən keçib, gizli yollarla hava işıqlaşmamış Qalaya girdilər. Mirzə Cəlilin verdiyi ünvanı tapdılar. Həmidə xanımla, övladları ilə görüşdülər. Bu qonaqpərvər qadın:

– Mən məktub yazana qədər siz bir loxma çörək yeyin, – deyib, onları zorla süfrə arxasında əyləşdirdi. Həmidə xanım məktubu yazıb başa çatdırandan sonra bir üçkünc konvertə qoyub Heydərə verdi. Gecə ikən onlar gəldikləri yolla da geri qayıtdılar. Və ertəsi gün günortaüstü Ağdamda Mirzə Cəlillə vədələşdikləri yerdə oldular. Mirzə Cəlil Heydərlə Mayılı görəndə oturduğu yerdən cəld qalxıb uşaq kimi sevinə-sevinə onlara tərəf yüyürdü. Görüşdülər. Heydər cibindəki məktubu çıxarıb Mirzə Cəlilə verdi. O, məktubu birnəfəsə oxuyub dodaqlarına yaxınlaşdırdı, gözlərindən iki gilə yaş süzülüb məktubu islatdı. Sonra Mirzə Cəlil Heydəri də, Mayılı da bağrına basıb minnətdarlıqla:

– Çox sağ olun, övladlarım! Allah sizi Özü qorusun! Məni xeyli sakitləşdirdiniz! Sizin bu hərəkətiniz, elə bil, mənə dünyaları bağışladı, – deyə onlara bir daha "sağ ol!" dedi.

– Nə danışırsınız, Mirzə, bu, bizim borcumuzdur!

Sonra Mirzə Cəlil əlavə eləyib dedi:

– Yəqin, ikiniz də subaysınız. Allah qoysa, toyunuza məni də çağırarsınız. Əgər çağırmasanız, sizdən möhkəm inciyərəm, çağırsanız, görün necə qol götürüb oynayacağam!!!

Mirzə Cəlil hər iki dostu yenidən qucaqlayıb bağrına basdı. Və ayrılıb hərə öz işinin dalınca getdi. Mirzə Cəlil isə Şuşadan, arvad-uşağından arxayın olub Kəhrizliyə qayıtdı.

Bir neçə gündən sonra dostlar yenə də Mirzə Cəlilin işinə yaradılar. Bu dəfə də ondan Həmidə xanıma, Həmidə xanımdan da ona məktub aparıb-gətirdilər. Bu dəfə Şuşaya göndərdiyi məktubunda Mirzə Cəlil yazırdı:

"Əzizim Həmidə!

Yaxın günlərdə türk qoşunlarının Əsgərana hücumu gözlənilir. Onlara kömək üçün bu gün atlıların siyahısı tutulur. Mən gəlmişəm əlimdən gələn köməyi göstərim və qoşunlarla birgə hücumda iştirak eləyim. Bu gün Ağdamda deyirlər ki, Şuşada aclıqdır. Bu, məni yaman pərişan eləyib. Dünən, bu gün Ağdama dalbadal türk qoşunları gəlir. Axmaq ermənilər doğrudanmı müqavimət göstərəcəklər?! Heydərin harada olduğunu və onların bazar günü yazdığım xəbərləri sənə çatdırıb-çatdırmadıqlarını bilmirəm. İndi Şuşadan nümayəndə heyəti gəlmişdi, baxırdılar görsünlər ki, bütün bu işlər necə qurtaracaq. Bu gün sənə poçtla pul göndərə bilmədim, çünki cümə günü olduğuna görə bu gün tacirlərin heç biri yerində deyil. Bazar günü üç araba un göndərəcəyəm, qoy uşaqlar sənin üçün (...) hazırlasınlar. Özümsə imkan olan kimi gələcəyəm. Sənin təsərrüfat işlərinin hamısı öz qaydasındadır.

Cəlil

17 sentyabr 1918-ci il" [10].

Məktubun məzmunundan da aydın olur ki, Mirzə Cəlil "axmaq ermənilər"in Qarabağdakı qanlı cinayətlərinə dözməyib əlinə silah alaraq Ağdama gələn türk qoşunlarının Əsgərana hücumu ərəfəsində onlara kömək üçün siyahı tutulan zaman yerli atlı dəstənin tərkibinə yazılıb döyüşlərdə iştirak etmək istəyirmiş.

Həmin vaxt Gülablı kəndinin yaxınlığından keçən cəbhə xəttində hər iki tərəf üzbəüz səngər qazmışdı və ara-sıra atışmalar olurdu. Gülablıdan və qonşu kəndlərdən adamlar hər gün ora gedir və döyüşlərə tamaşa edirdilər. Mirzə Cəlil də tez-tez müsəlmanların səngərinə gəlir, münasib bir yerdə durub döyüşü izləyirmiş. Amma bir gün onu tanıyan Həsən Nəsiroğlu ad-familiyalı bir nəfər Mirzə Cəlilə yaxınlaşıb təkidlə tələb edir ki, burada durmasın, o yerdən çəkilsin, yoxsa ona güllə dəyə bilər. Sözə baxmayan Mirzə Cəlil onun sözünə baxıb yerini dəyişmişdi. Elə bu vaxt açılan atəş həmin yerdə dayanıb durbinlə döyüşün gedişini izləyən Lütfəli bəy Behbudova dəymiş və onu öldürmüşdü. Həsən Nəsiroğlunun bu hərəkəti, onu ölümdən qurtarması Mirzə Cəlili bərk təsirləndirmiş və o, bunu ömrünün sonuna qədər unutmamışdı [6, s. 38-39].

Nəhayət, söz-söhbət dolaşdı ki, türklər gəlirlər. Türklər ölkədə nizam-intizam yaratmaq və Şuşa yolunu açmaq üçün gəlirdilər. Hər kəs türklərin gəlişini gözləyir və Şuşada böyük pişvaz tədbirləri görülürdü. Şəhər bəzədilmiş, qala qapılarının girəcəyində bir neçə zəfər tağı asılmışdı. Bu zəfər tağlarının birini Şuşa qadınları adından Həmidə xanım ucaltmışdı. Ağ kəlağayı üzərində tikmə naxışla hilal və ulduz salmış və türkcə belə bir şüar yazdırmışdı: "Gün gələcək, həqiqət günəşi doğacaq, əsarətdə qalan ana Şərq istiqlal qazanacaq" [2, s. 180].

Şuşaya birinci olaraq avtomobildə türk qoşunlarının komandanı Cəmil Cahid paşa gəldi. Gələn kimi də Gövhər ağa məscidini ziyarət elədi. Sonra ətrafı ilə birlikdə Xan qızının bulağına tərəf getdi. Həmin vaxt şəhərin erməni hissəsindən hakimiyyət nümayəndələri bayraq və nişanlarla əhatə olunmuş avtomobillə aşağıya tərəf – şəhərin müsəlman hissəsinə gələrək öz itaətlərini bildirdilər. Sonra uzun-uzadı nitqlər söylədilər, saxtakarlıqla sülhdən, barışıqdan, dostluqdan, qonşuluqdan dəm vurdular və az sonra çıxıb getdilər. Türklər ehtiyatı əldən verməmək üçün silahlı qüvvələrinin bir hissəsini şəhərin erməni hissəsində yerləşdirdilər.

Türklərin gəlişindən bir gün sonra Mirzə Cəlil ölümü gözünün qarşısına alaraq çətinliklə Şuşaya gəlib çıxdı. Bu ağır vaxtda onun gəldiyini eşidən şuşalılar, o cümlədən, Cəmil Cahid paşa da Mirzə Cəlilin görüşünə gəldi. Sən demə, bu türk zabiti Cəlil Məmmədquluzadəni "Molla Nəsrəddin" jurnalı vasitəsilə tanıyırmış və bu adama böyük hörmət və ehtiram bəslədiyindən onunla şəxsən tanış olmaq istəyirmiş.

Xəmirləri biclik və riyakarlıqla yoğrulan Şuşanın erməni ziyalıları Cəmil Cahid paşanın şərəfinə ziyafət təşkil etmişdilər. Bu ziyafətə azərbaycanlı ziyalılar, o cümlədən, Cəlil Məmmədquluzadə və Həmidə xanım da dəvət olunmuşdular. Ziyafətdən bir neçə gün sonra Mirzə Cəlillə Həmidə xanım Cəmil Cahid paşanı evlərinə qonaq çağırdılar. Türk paşası bu dəvəti məmnuniyyətlə qəbul eləyib qonaq gəldi. Stol açıldı. Masa arxasında hər iki valideynin övladları – Mina və Münəvvər də əyləşmişdilər. Cəmil Cahid paşa Cəlil Məmmədquluzadə ilə xeyli söhbət elədi. O, Həmidə xanıma dedi ki, Türkiyədə hələ indiyə qədər çadrasını atan qadın yoxdur. Türk paşası çadra örtməyən Həmidə xanıma və onların övladlarına baxıb təəccüblənir və Azərbaycan xalqının gələcəyinin parlaq olacağını deyirdi.

...Mirzə Cəlil uzun müddət Kəhrizlidə yaşayıb-yaratdı. Böyük ədibin bir sıra gözəl əsərlərinin meydana gəlməsi bu kəndin adı və mühiti ilə bağlı oldu.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Bayramov Fərman. Cəlil Məmmədquluzadə və kitabxana işi. "Şərq qapısı" qəzeti, 17 may 1967-ci il, № 18
2. Cavanşir Həmidə xanım. Xatirələrim. Bakı: "Apostroff", 2011
3. Əlifov Bəhram. Xeyirxahlıq unudulmur. "Sürət" qəzeti, 12 may 1967-ci il, № 98
4. Əliyeva Qəmər. Böyük ədib, böyük mürəbbi. "Bakı" qəzeti, 29 yanvar 1966-cı il, № 24
5. Əliyeva Leyla. Unudulmaz Mirzə. "Bakı" qəzeti, 5 fevral 1966-cı il, № 30
6. Həmidə və Cəlil Məmmədquluzadələr. Məktublar. Bakı: "Gənclik", 1994
7. Hüseynov Şirxan. Cəlil Məmmədquluzadənin Ağcabədi ilə bağlılığı. "Sürət" qəzeti, 26 sentyabr 1981-ci il, №112
8. Jukova Mariya. Ədibin evində keçirdiyim günlər. "Bakı" qəzeti, 22 yanvar 1966-cı il, №18
9. Quliyev Vasif. Xan kəndində hamı onu tanıyırdı. "Şuşa" qəzeti, 15 mart 2017-ci il, № 5
10. Quliyev Vasif. Ölümün gözünə gülə-gülə baxdı. "Qarabağ" qəzeti, 15 fevral 2010-cu il, № 5
11. Məmmədquluzadə Həmidə xanım. Mirzə Cəlil haqqında xatirələrim. Bakı: "Gənclik", 1981
12. Şərif Əziz. Yenə bir mollanəsrəddinçi haqqında. "Ədəbiyyat və incəsənət" qəzeti, 30 sentyabr 1956-cı il, № 40

***Vasif KULIYEV***

## Calil Mammadkuluzadeh's activity in the social, cultural, agricultural and political life of Karabagh

***S u m m a r y***

The article focuses on Jalil Mammadkuluzadeh's social, cultural, agricultural and political activity in Karabagh.

The writer's second acquaintance with Karabagh happened in June of 1907, after getting married to Hamida Khanum Javansher. From that time, till his death, the author lived in Kahrizli with short breaks, created interesting pages in the history of this village leaving permanent signs with his work and creative activity.

Since he came to Kahrizli Jalil Mammadkuluzadeh met simple, kind, hard-working people, learned about their lifestyle, problems, needs and did his best to help.

Mirza Jalil and Hamida Khanum started several cultural activities and he assisted Hamida Khanum to realise her dreams. They together opened a school, library, knitting workshop in the village.

In his works, he mentioned that the library was beautiful and tidy. The author who underlined the great role of the libraries to enlighten the nation, stated interesting thoughts in many of his articles, letters, essays and the caricatures published in "Molla Nasuriddin". To educate well, he advised the children to read Zeynalabdin Maraghayi's "Voyages of Ibrahim bay", Mirza Mulkum Khan's works, M. F. Akhundov's comedies, Molla Panah Vaqif's, M. A. Sabir's poems rather than religious books, use books, journals appropriately and preserve literature.

The writer was active in political sphere as well.

***Васиф КУЛИЕВ***

## Общественная, культурная, хозяйственная и политическая деятельность Джалила Мамедгулузаде в Карабахе

***Р е з ю м е***

Статья посвящена общественной, культурной, хозяйственной и политической деятельности Джалила Мамедгулузаде в Карабахе.

Знакомство великого литератора с Карабахом во второй раз началось в июне 1907 года – после его женитьбы с Гамидой ханым Джаваншир. С того времени гениальный писатель до конца своей жизни с небольшими перерывами прожил в Кяхризли, где своей работой, деятельностью, творчеством оставил неизгладимый след в жизни этого села, вписал множество интересных страниц в его истории.

С того дня, как Джалил Мамедгулузаде приехал в Кяхризли, он наладил дружественные отношения с простыми, искренними, трудолюбивыми людьми, близко ознакомился с их образом жизни, изучил проблемы и заботы, по мере своих возможностей оказывал им помощь в решении этих проблем.

В Кяхризли Мирза Джалил вместе с Гамидой ханым стал инициатором осуществления многих культурных мероприятий и оказал большую помощь в осуществлении желаний своей супруги. Они вместе открыли в селе школу, создали библиотеку, ткацкую мастерскую, занимались хозяйственной работой.

С ряда публикаций Джалила Мамедгулузаде становится известно, что он также был прекрасным и аккуратным библиотекарем. Видный литератор всегда выводил в передний план книги, библиотечное дело в повышении грамотности у народа, возрождении нации, в своих статьях, письмах и фельетонах, а также в карикатурах, отраженных в журнале «Молла Насреддин», он высказал прекрасные мнения об этом, детям тружеников он советовал вместо религиозных книг читать «Сеяхетнаме Ибрагим бека» Зейналабдина Марагаи, произведения Мирзы Мулькум хана, комедии М.Ф.Ахундова, стихи Моллы Панаха Вагифа, М.А.Сабира, призывал читателей эффективно использовать книги и журналы, бережно относиться, хранить литературу.

Выдающийся писатель-демократ, в то же время, занимался и политикой.